**UOT 82**

# NEMƏTULLAH KİŞVƏRİNİN BƏDİİ DÜŞÜNCƏSİNDƏ TƏSƏVVÜF MOTİVLƏRİ

**Fidan RZAYEVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 30 mart 2023; çapa qəbul edilmişdir: 27 aprel 2023; online-da çap edilmişdir: 31 may 2023.

Received: 30th of March, 2023; accepted: 27th of April, 2023; published online: 31ST of May, 2023.

**Açar sözlər:** *Kişvəri, lirika, eşq, təriqət, irfan, simvol, təsəvvüf, obraz, sirr, poetik*

## Giriş

XV əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri də Nemətullah Kişvəridir. Şairin yaradıcılığı həm anadilli poeziyamızın zəngin ənənələri, həm də farsdilli şeirin təcrübəsi üzərində təşəkkül tapmışdır. Şairin indiyədək çoxyönlü tədqiqata cəlb edilməyən ədəbi irsi türkcə və farsca divanlarında toplanan şeirlərdən ibarətdir. Kişvəri klassik şeirin qəzəl, qəsidə, müxəmməs, təxmis, mürəbbe, müstəzad, rübai janrlarında şeirlər yazmışdır. Onun lirikası mövzu baxımından eşq, ictimai-siyasi düşüncələr və fəlsəfi məsələləri əhatə edir.

Kişvəri dövrünün tanınmış mütəfəkkiri olaraq bütün yaradıcılığı boyu azad insan və onun kamilləşməsi məsələsini qeybin sirlərinə bağlı eşq əhlinin iztirabları, dövrandan narazılıq və s. mövzularla əlaqələndirərək ədəbiyyata gətirmişdir. Sözsüz ki, ədibin ədəbi irsinin formalaşmasında dahi Nizami, Nəsimi, Füzuli kimi mütəfəkkirlərin, eləcə də özbək şairi Nəvainin böyük təsiri olmuşdur. Xüsusilə Nizaminin eşq dastanlarının əbədi qəhrəmanları – Leyli, Məcnun, Fərhad, Şirin və s. obrazları onun şeirlərinin ideya-poetik qaynağını təşkil etməkdədir. “Kişvəri, bir tərəfdən, özünəqədərki anadilli poeziyadan bəhrələnibsə, digər tərəfdən, ümumi türkdilli ədəbiyyatın o vaxtaqədərki ən görkəmli nümayəndəsi olan dahi özbək şairi Nəvaidən öyrənmiş, faydalanmışdır” (8, 353).

Kişvəri yaradıcılığında diqqəti cəlb edən mühüm cəhətlərdən biri də onun lirik şeirlərinin dini-irfani qaynaqları və təriqət ədəbiyyatına bağlılığıdır. Qeyd edək ki, Nemətullah Kişvərinin yaradıcılığını araşdıran tədqiqatçılar bu istiqamətdə müxtəlif fikirlər söyləmiş, şairin dünyəvi və ya təriqət alimi olmasında müxtəlif cəbhədə dayanmışlar. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı məsələlərini çoxyönlü tədqiqi etmiş prof. Ə.Səfərli XV əsrin digər ədibləri sırasında Kişvəri yaradıcılığına da toxunmuş, şairin irsinin öyrənilməsi, həyat və yaradıcılığı haqqında məlumat vermişdir. Tədqiqatçı alim Kişvəri lirikasını təhlil edərkən burada başlıca motivin insanın ictimai özbaşınalığa qarşı mübarizəsinin olduğunu və real – dünyəvi məhəbbətin tərənnümünə bağlılığın ön planda olmasını irəli sürmüşdür: “Kişvəri üçün də məhəbbət böyük arzu və amalları tərənnüm etmək üçün bir vasitə rolunu oynayır. Onun həsrətini çəkdiyi namüsəlman əslində ümumi, mücərrəd fəlsəfi bir məfhumdur. Lakin bu mücərrədlik altında güclü, dərin bir reallıq vardır. Şairin hissləri, həyəcanları, kədəri realdır. Lakin bu kədər birbaşa deyil, rəmzi şəkildə ifadə edilmişdir” (8, 353). Eləcə də Kişvəri irsini orta əsrlər ədəbi dil əlaqələri baxımından araşdıran prof. Roza Eyvazova müxtəlif mənbələrə istinad edərək yazır: “Göründüyü kimi, Kişvəri şeirlərində dərin bir kədər var. Heç bir din və təriqət

* *magistrant, BAAU*
*e-mail*: fidan.rzayeva@diksiya.az

görüşləri ilə bağlı olmayan, təbiətən şad, həyata bağlı, gözəlliyi qiymətləndirən bu sənətkarın əsərlərində hiss edilən kədər onun dövrü və şəxsi həyatı ilə əlaqədardır. Həyati məhəbbətin tərənnümü, dil sadəliyi, fikir aydınlığı, səmimiyyət, axıcılıq Kişvərinin bütün lirik şeirlərinə xas olan əsas cəhətlərdəndir" (2, 11).

Məlumdur ki, qədim və orta əsrlər ədəbiyyatımızın bir çox nümayəndələrinin yaradıcılıq irsi irfani düşüncə əsasında yazılmış, bu nümunələrin poetik xüsusiyyətləri də fəlsəfi, simvolik mahiyyəti ilə seçilmişdir. Əhli-beyt sevdası, islam ehkamlarına bağlı dörd qapı həqiqəti, sufiyanə məhəbbət, hürufiliyin hərf rəmzləri dövrün lirikasında başlıca yer tuturdu. Hətta Kişvərinin farsca divanının araşdırmasında onun qələndəriyyə təriqətinə bağlılığı da irəli sürülmüşdür. L.İbrahimova qeyd edir ki, XV-XVI əsrlərin ədəbi, fəlsəfi, dini mühitindən bəhs edərkən geniş yayılmış təriqətlər – hürufilik, xəlvətilik, səfəvilik, nöqtəvilik, qələndərilik və s.-nin dövrün ədəbi mühitinin formalaşamasına təsir etdiyi də vurğulanır. Nemətullah Kişvəri belə bir mühitin yetirmələrindəndir. Azərbaycan türkcəsində olan şeirlərində özünü tez-tez qələndər adlandırdığını izləsək də, şairin həmin təlimin ardıcılı olduğunu düşünmürük. Amma şairin yaradıclığında qələndəriliyin təsiri duyulmaqdadır. Çox güman ki, Kişvəri də Anadoludakı qələndərilərdən ilhamlanmışdır (3, 11).

Ümumiyyətlə, Kişvərinin fars və Azərbaycan dillərindəki divanlarında toplanan şeirlərin məzmun və ideya xüsusiyyətləri şairin lirikasında dünyəvi və dini-irfani məhəbbətin birliyini üzə çıxarır. "XIII-XIV əsrlərdə İ.Həsənoğlu, M.Şəbüstəri, Z.Şirvani, M.Əhvədi, Ə.Təbrizi, İ.Nəsimi və s., XV-XVI yüzilliklərdə isə Q.Ənvar, Xəlili, Kişvəri, I.Gülşəni, Həbibi, Xətai, Füzuli və s. sənətkarlarımızın yaradıcılığında təriqət ideyaları özünün ciddi bədii əksini tapır. XVII-XVIII əsrlərdə bu meyil xeyli dərəcədə öləzisə də, öz ömrünü davam etdirir. Ümumiyyətlə, bu dövrün böyük ədəbi şəxsiyyətləri sufizmə öz sələfləri ilə müqayisədə az meyil göstərmişlər" (1, 53).

Klassik Azərbaycan ədəbiyyatının böyük bir qolu dini-fəlsəfi mahiyyət daşıyan təsəvvüf düşüncəsi əsasında formalaşmışdır. Sufizmin yaranması, tarixi mərhələləri, formalaşma xüsusiyyətləri, bədii ədəbiyyatda ifadə formaları və s. Avropa və Şərq ədəbiyyatşünaslığında geniş təhlil edilib öyrənilmişdir. Qeyd edək ki, sufizm bütövlükdə islam dini zəminində yaranıb formalaşan bir cərəyan olmaqla zərdüştilik, kabbalizm, qədim yunan fəlsəfəsinin bir çox xüsusiyyətlərini özündə birləşdirir. Sufizmin başlıca məzmunu insanın eşq və gözəlliyi dərk etməsi, Allaha, onun nuruna çatmaq üçün mübarizə aparması, nəfsə, şərə qalib gəlməklə "Nurlar nuruna" qovuşması inancından doğur. Bu baxımdan sufizm insanın mənəvi təmizlənmə, arınma məsələsini gündəmə gətirməklə orta əsrlər dünyasında ona yeni dəyər, qiymət vermiş olur. Təsəvvüfdə aşiq Haqqa qovuşmaq üçün müxtəlif mərhələləri keçməli və kamilləşməlidir. Bununla belə, təsəvvüf "yolçusunun son məqsədə çatmaqdan ötrü keçməli olduğu mərhələlərin sayı dörd göstərilir: 1.şəriət; 2.təriqət; 3.həqiqət; 4.mərifət. Bəzən bu mərhələlərin sayı üç (şəriət, təriqət, həqiqət) deyə qeyd edilir. Mərifət ayrıca mərhələ kimi yox, Haqqı tanıma elmi, həqiqətin dərki və ilahi bilik kəsb etmək, ariflik mənalarında götürülür. Sufi məslək poeziyada Tanrı dərgahına gedən yolda qapıların – mərhələlərin dörd olduğu tez-tez xatırlanır" (1,33). İlkin mərhələ olan şəriət Allahın insanlar üçün buyurduğu, peyğəmbər vasitəsilə göndərilən bütün şəri hökmlərə əməl edilməsini tələb edir. Allaha tapınma və onu tanımanın başlanğıcı kimi şəriət müəyyən qayda-hökmləri bir araya gətirir. İbadət, namaz, xüms, zəkat, oruc və s. bu qaydalar sırasında başlıca yer tutur. Təriqət mərhələsi isə şəriətlə yüklənən insanın bu yola qədəm qoyması, qayda-qanunlara əməli icrasını müəyyənləşdirir. "Sufizmin həqiqət və mərifət mərhələsi isə Haqqa çatma, ona qovuşma və onunla zinətlənməni ifadə etməkdədir. Qeyd edilən bütün mərhələlərin başdan sona qədər keçməsi isə insanın ruh, ağıl, vəcd, nəfs və s. mənəvi varlığının tərbiyə olunması, düzgün yol seçməsindən qaynaqlanır". (4, 68)

Qeyd edək ki, təriqət ədəbiyyatı bu və ya digər konsepsiyaya bağlı olaraq özünəməxsus məcazlar sistemi və motivləri ilə fərqləndirilir. Təsadüfi deyildir ki, irfani düşüncədə insanın Haqqa qovuşmasındakı eşq anlayışı, ruhi təmizlənmə və s. motivləşmənin əsasında dayanır. Eyni zamanda motivlər ayrı-ayrı simvolik söz və ifadələrlə bu və ya digər şəkildə bədii mətnə daxil olur. Bu qrup sözlərə irfani termin, məcaz və anlayışlar daxildir. Təriqət şeirinin təsəvvüf düşüncəsindən irəli gələn məcaz və terminləri Kişvəri lirikasında aşağıdakı şəkildə ümumiləşdirmək olar:

1. Eşq və məhəbbətin sufi-irfani təzahüri;
2. Haqq yoluna dəvət edən, yol göstərən-mürşid və şahın obrazlaşması;
3. Aşiqlərin məkanı– meyxana;
4. Haqqa doğru yüksəlmədə emanasiya, təmizlənmə – od, işıq təsəvvürü;
5. Haqqa gedən yolun məşəqqət və sevincinin saç, zülf və s.-də simvollaşması;
6. Sirlilik, qeybin dil, dodaq, ləbin metaforalaşması və s. (3, 56)

Kişvərinin təsəvvüfi düşüncəsində eşq yaradılışın əsası, qəlb aşiqlərinin sirli dünyası və insanın yaşama səbəbidir. Sufizmə görə, eşq insanı Allaha, Haqqa çatdırır. Bu yol aşiq üçün uzun və çətindir. İnsanın Allaha çatması üçün onun qət edəcəyi mərhələlər sonda kamillik zirvəsində yekunlaşır. Kişvəri yazır:

*Eşq yolunun bəlası çox, vəli hər kim ki, ol*
*Eşq ilən girdi bu yola, Tanrı yaridür anun.* (5, 55)

Eşq aşiqlərin üz tutduğu bir yoldur, lakin bu yol məşəqqətlidir. Bütün çətinliklərə baxmayaraq, şair bu yola daxil olan aşiqlərə Tanrının kömək edəcəyi ilə təsəlli verir. Şairə görə, kamillik zirvəsinə çatmaq istəyən aşiqə bu eşqin gətirdiyi rüsvayçılığı dərd etməyə dəyməz. Çünki Nuhla birlik onu – aşiqi bu tufan və bəladan qurtaracaqdır:

*Eşqi kamil aşiqə rüsvaylığından dərdi yox,*
*Nuh ilə həmxanə bolsan, mövci-tufandan nə ğəm.* (5, 61)

Şair bu kiçik parçada Nuh peyğəmbərin başına gələn tarixi-mifoloji hadisələri aşiqin çəkdiyi iztirab və fayda üzrə izah edir. Dini rəvayətlərə görə, Allahdan üz döndərən Nuh qövmünü Tanrı cəzalandırır və peyğəmbərə əmr edir ki, nəhəng bir gəmi hazırlasın. Hazır olan gəmiyə Allahın əmri ilə əməlisaleh insanlar və canlılar daxil olmaqla xilas edilir. Kişvərinin eşq yolunu tutan qəhrəmanı da tutduğu yolun düzgünlüyü ilə Nuhun yanında qalacaq, xilas olacaq, seçilmiş bir aşiqdir. Haqq aşiqinin ən böyük mükafatı Allaha qovuşmaqdır. Azərbaycanın məşhur şairi İmadəddin Nəsimi irsinin geniş, fundamental araşdırmasını aparan tədqiqatçı-alimimiz S.Şıxıyeva bu xüsusda yazır: "Allahın ("yar") camalının cənnət olması barədə düşüncə geniş yayılmışdır. Haqq aşiqinin məqsədi cənnət deyil, yarın – Allahın vüsalıdır. Bu vüsala yetişməyin çeşidli yolları vardır. Sufi şairlər bunu müxtəlif şəkildə dərk və təsəvvür edirlər. Nəsiminin istər farsca, istərsə də türkcə divanında başlıca mövzulardan biri onun ali məqsədi olan ilahi vüsala yetişməsinin ifadəsi və vüsal anının tərənnümüdür" (11, 154) .

Allaha qovuşacaq yolda irəliləyən aşiqlərin ustadı, müəllimi isə "piri-muğan", "mürşid" və "şah"dır. Kişvəri lirikasında tez-tez şah və mürşidlərə səslənmə, onlardan kömək istəmə də təriqət ədəbiyyatında idarəedici şəxsiyyətlərə olan xitabla səsləşir:

*Yarəb, ol şahi-cəvanan ərzinə nə yetdi kim,*
*Hiç qılmaz yad bir gün mən ğulami-pirdən.* (5, 96)

*Mən mənəm, mən kim, qəbuli-həzrəti-şahəm bu gün,*
*Xələti-şahi geyib, məqbuli-dərgahəm bu gün.* (5, 92)

Yaxud:

*Kişvəri, piri-muğanın qulluğun tərk etmə kim,*
*Hər nücə əskrükdürür, var onda bir huşyarlıq*. (5, 43)

Klassik dini-təsəvvüfi şeirdə rəmzi məqamlardan biri də aşiqlərin ruhi rahatlıq tapdığı meyxanalara üz tutması və orada Allahı zikr etməsidir. Ümumiyyətlə, orta əsrlər ədəbiyyatında, xüsusilə divan şeirində mədrəsə və meyxananın qarşılaşdırılması, aşiqin mənəvi rahatlığını piri-muğan, mürşid yanında tapmaq üçün meyxanaya üz tutması geniş yayılmış təsviri vasitələrdəndir. "Burada başlıca məqam mədrəsə və meyxananın dini təlimdəki yeri və funksionallığının müəyyənləşdirilməsi məsələsidir. Məlumdur ki, müsəlman Şərqində mədrəsələr dini təhsil və təlimin mərkəzi sayılmaqla dini məktəb təcrübəsini özündə birləşdirmişdir. Bu məktəblərdə elmi istiqamət dinin qayda-qanunları, başlıca ehkamlarının öyrədilməsinə bağlıdır. Mədrəsələrə qarşı qoyulan təkkələr (rəmzi mənada "meyxana" adlandırılmışdır) – bu mərkəzlər dini təlimi daha emosional, azad şəkildə təbliğ etmişlər". (8, 128)

Meyxanada həqiqi eşqi axtaran insan azaddır, o, mədrəsənin qoyduğu dini ehkamları qorxu və iztirab içində yerinə yetirmək məcburiyyətində deyildir. Meyxana aşiqi özü öz içində ilahiyə gedən yolu axtarır. Məhz bu kontekstdə Kişvəri şeirində də aşiq meyxana yolunu tutub, ruhi rahatlığı, eləcə də ilahi sevgisini meyxanalarda axtarır:

*Mən ki, bir əhli-səlah irdim ləbin yadi bilə,*
*Məstü bixud sakini-meyxanə boldum aqibət.* (5, 19)

Beytdən də məlum olur ki, aşiq gözəlin ləbinin sevdasındadır. "Çünki "ləb" anlayışı da irfani rəmzləşmədə haqq sözü, kəlamı kimi dəyərləndirilir" (3, 26). Bu eşq yolunda aşiq, nəhayət, özünü meyxanada görür:

*Məskənim meyxanəvü başımdadur cami-şərab,*
*Sahibi-taci-Keyü təxti-Firidunəm yenə.* (5, 108)

İlahi eşqin təriqət şeirində təzahür formalarından biri də işıq, nur həqiqətinin qəbul edilməsidir. Sufi şeirdə varlıq Allahın nur, parçasından qopub gələn bir həqiqətdir. Kamillik zirvəsinə çatan insan sonda bu nura qovuşmaqla o arzularını reallaşdırmış olur. İşraqilik fəlsəfəsinin banisi, görkəmli filosof Şihabəddin Yəhya Sührəvərdi özünün məşhur "İşıq heykəlləri" traktatında yazırdı: "Ey əbədi mövcud olan, bizə işıqla kömək göstər, bizi işıqla möhkəmlət, bizi işıqla birləşdir, bizim son ehtiyaclarımızı özün təmin et, ən uzaq məqsədlərimizi o şey et ki, səni qarşılamaq üçün bizi hazırlayır. Nəfislərimizə zülm etmişik. Sən comərdlik üçün xəsis deyilsən. Zülmət yolçuları qapıda durub mərhəmət gözləyir, xeyir diləyirlər. Xeyir sənin ilahi adətindir" (9, 21).

İşraqiliyin əsasında dayanan təlimdə də insan, yaradılış Vahiddən, İşıqlar İşığından qopub gələn bir parçadır. O daima zərrə olaraq öz ilkinə – işığına qovuşmağa can atır, ona yaxınlaşdıqca kamilləşir, günəşindən uzaq düşdükcə isə məhv olur, bədbinləşir. İşıq, od bu fəlsəfi başlanğıcda arınma, emanasiya və təmizlənmədir. Eyni zamanda Quranın "ən-Nur" surəsinin 35-ci ayəsində oxuyuruq: "Allah göylərin və yerin nurudur. (Kainatı yaradıb ona nur verən, yer və göy əhlinə haqq yolu göstərən xaliqdir... O, nur üstündə nurdur. Allah dilədiyini öz nuruna qovuşdurur (istədiyinə öz nurunu bəxş edib cənnətə yolu olan islam dininə yönəldir)..." (6, 380). Klassik şairlərimiz kimi Kişvəri də bu işıq həqiqətini qəbul edərək, zərrənin tama qovuşmasını işıq, nur fəlsəfəsi ilə şeirə gətirir:

*Mənəm bir zərreyi-sərgəştə, sən xurşidi-tabansan,*
*Bolur varisinə mehrin, nədəndir kim, mana bolmaz.* (5, 37)

Şair bu odu mübaliğəli şəkildə həm də Səməndər quşunun yanan və öz külündən yenidən törəyən əbədi varlığı, iztirabı motivi ilə şeirə gətirir:

*Həsrətindən oda yandığı içün qul Kişvəri,*
*Ol səbəbdən çün Səməndər narı sevdim aqibət.* (5, 18)

*Şöleyi-şəmi-hidayətdür cəmalın pərtövi,*
*Qibleyi-milkü məlaik vəsməlü qaşın sənin.* (5, 60)

*Şəmi-ruyindən alur tən zindəgi, can rövşəni,*
*Xaki-payindən tapar əsbab dil, ənvar göz.* (5, 37)

Sufi şeirinin rəmzlərindən olan gözəlin saçı da Kişvərinin lirikasında ayrıca rəmzi məna qazanır. Sufi ədəbiyyatda “saç”, “kakül”, “muy”, “zülf” kimi ifadələr klassik divan şeirində daha çox poetiklik qazanmışdır” (3, 48). Aşiq gözəlin zülflərinin həsrətini çəkir, onun ətrində məst olmağı arzulayır və gözəlliyində rahatlıq tapır. İrfani şeirdə saç, zülf anlayışı simvolik mənada Allah gedən yol, bu yolun qaranlığı və s.-ni ifadə etməkdədir.

*Bir pərinin saçı sevdası düşübdür başıma,*
*Tərk edib təsbihivü zünnarı, sevdim aqibət.* (5, 18)

*Kim ki, gördü kakilini, bağladı zünnari-küfr,*
*Qoymadı aləmdə vəh bir salim iman kakilün.* (5, 53)

*Kakilindən rişteyi-ümmidi yüzməz Kişvəri*
*Kim, anün hər taridür bir rişteyi-can kakilün.* (5, 53)

İrfani ədəbiyyatın işlək motivlərindən olan aşiqin mey sevdası və şərabla məstliyinin ifadəsi Kişvərinin yaradıcılığında da ayrıca yer tutur. “Kişvəri “Divan”inin obrazları zəncirinə şərab məclisi ilə əlaqədar, təsəvvüfdə xüsusi mənalar kəsb etmiş sözlərin yaratdığı, bir-biri ilə əlaqəli istilahlar sistemi daxildir. Bunlara mey, şərab, badə, cam, cürə, saqi, meyfüruş, meyxanə (meykədə, xərabat), tərsabəççə, muğbəçə aiddir” (3, 19). Meyxana məclisində saqi tərəfindən paylanan şərab aşiqin Allaha olan məstliyinə rəvac verməklə onun ruhi vəziyyətini formalaşdırır. Bu içki dünyəvi mənada insanın ağlını aparmaqla onun əxlaqını korlayan, pis vərdişlər yaradan şərabdan fərqlidir. Əksinə, aşiqə Tanrı sevgisinə gedən yolda ilahi hikmətə çatmaqda, onun dərkində sərbəstlik və mənəvi məstlik verir. Yuxarıda da qeyd etdiyimiz kimi, təsəvvüf islami zəminində yaranan müxtəlif cərəyanlardan qaynaqlanır, ayrıca zərdüştilük görüşlərini də özündə birləşdirir. Zərdüştlükdə bu şərab “som”, “xom” içkisi kimi qeyd olunur. Tədqiqatçı B.Şəfizadə Nizami yaradıcılığına zərdüştilüyün təsiri məsələlərini araşdıraraq yazır: “Zərdüştlükdə Som (Xom) içkisindən belə sərməstlik və nəşələnmə vardır ki, burada yanan udun və içkinin təsirindən əmələ gələn hal həmin təsirlə müqayisə olunur. Sonralar Füzuli qəzəllərinin birində yazacaq: *“Qoyalım başı xumi-bəla ayağına gəlin // Tutmaq olmaz onun hörmətini, bir uludur”*. Bu məstlik də “xum”dan, həmin məstlik və həmin “som”dandır” (10, 304). Kişvərinin lirikasında da təsəvvüfdən gələn məstlik “nurlar nuru”nu dərk etmək motivində də öz əksini tapmışıdır:

*Məni bir cam ilə saqi vücudimdən xilas etdi,*
*Anın pirinə yüz rəhmət, cavanmərdi həmin bolsun.* (5, 93)

*Əhbab ilə kim, badə içərtən kərəm etgil,*
*Mən bəndəyə bir cürəyi-cam nə boluptur.* (5, 27)

*Cami əldən qoyma kim, məlum iməs əncami-kar,*
*Haliya, xoşvəqtdür məstivü biaramlıq.* (5, 44)

Klassik ədəbiyyatımızda tez-tez rastımıza çıxan "saqi" ifadəsi, saqiyə xitab Kişvəri poeziyasında da yer alır:

*Necə bu xunabə cigər ola ki, tezrək qurtulam,*
*Saqi, mana bir cam lütf eyləgil əfyun bilən.* (5, 88)

*Qul Kişvərini istər isən qurtula bir dəm*
*Əyyami-qəmindən.*
*Lütf eyləgil, ey saqi, ana badeyi-əhmər,*
*Bir dolu piyalə.* (5, 160)

"İrfani ədəbiyyatda rəmzləşən motivlərdən biri də gözəlin "ləb"ini (dodaq) mənalandırmadır. Ləbin simvollaşdırılması hər şeydən öncə kainatın Allahın "Ol" əmri, yəni "Kon" sözü ilə yaranması düşüncəsindən irəli gəli. "Ləb" ilahi bilik, sirlərin mənbəyi, varlığına olan işarədir" (3, 68). "Dodaq sufizmdə kəlam, ruh, həyat, fəna, yoxluq və s. simvolik anlamlarda da işlədilir. Allah kainatı sözdən («kon» – «ol») yaradıb, söz isə dodaq və ağız vasitəsilə ifadə edilir. Deməli, varlığın qərarlaşmasında dodaq bir vasitəçidir. Həm də həqiqətlər, ilahi sirlər, dil və sözlə şərh edilir ki, bu da dodaq və ağız vasitəsilə mümkün olur". (1, 121) Kişvəri:

*Nöqteyi-yaqutdur ağzun, kəlamın sirri-ğeyb,*
*Dişlərin nasüftə lölöyi-tərü mərcan ləbin.* (5, 55)

*Zülməti-zülfün əgərçi afəti-candur, vəli*
*Abi-heyvan şərbətidür ləli-ruhəfzalığın.* (5, 52)

**Nəticə**

Nemətullah Kişvərinin yaradıcılığı ilə bağlı təhlillərimiz bir daha onu vurğulamağa əsas verir ki, onun lirikası bu və ya digər cəhətlərlə yanaşı, dini-irfani şeirin də təsiri altında formalaşmış və inkişaf etmişdir. Kişvəri lirikasında təsəvvüf düşüncəsi bütün hallarda həm də bir vasitə kimi qiymətləndirilə bilər. Haqqı sevmək, Haqq yolunu tutmaq əslində insanın mənəvi təkamülünə işarədir. Daxilən nurlanan, Haqq feyzindən mənən işıq alan insan cəmiyyət, həyat üçün də yenilənən bir qüvvədir. Bu baxımdan Kişvərinin təsəvvüfi məzmunlu şeiri müxtəlif dini ehkam və qaydaların süni şəkildə, zorla qəbul etdirilməsi deyildir, o, doğru olanı göstərir, seçimi isə aşiqin ixtiyarına buraxır.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində:**

1. Babayev Y. Təriqət ədəbiyyatı: sufizm, hürufizm. Ali məktəblərin filoloji fakültələri üçün dərs vəsaiti. Bakı: Nurlan, 2007, 128 s.
2. Eyvazova R. Orta əsr ədəbi dil əlaqələrinin Kişvəri əsərləində təzahüri (linqvistik təhlil). Bakı: Elm, 1999, 293 s.
3. İbrahimova L. Nemətullah Kişvərinin farsca "Divan"ının ideya-tematik və bədii-üslubi xüsusiyyətləri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2021, 28 s.
4. İslam: tarix, fəlsəfə, hüquq. Ensiklopedik lüğət. Tərtibçi müəliflər: A.Əlizadə, E.Səmədov. Bakı: 3 saylı mətbəə, 2016, 308 s.
5. Kişvəri, Nemətullah. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, 176 s.
6. Qurani-Kərim. Bakı: Çıraq, 2005, 632 s. Ziya Bünyadov
7. Mütəhhəri Ş.M. Kamil insan. Tərc. ed.: A.Mehdiyev. Bakı: Parlaq İmzalar, 2001, 283 s.
8. Səfərli Ə., Yusifov X. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1982, 386 s.
9. Sührəvərdi Şihabəddin Yəhya. İşıq heykəlləri. Bakı: Elm, 1989, 48 s.
10. Şıxıyeva S. Nəsiminin lirikası: irfani məndəricə və poetik zinətlər. Bakı: Elm və təhsil, 2019, 320 s.
11. Şəfiyev B. Nizami yaradıcılığında "Avesta" və Zərdüştiliyin təsiri // Nizami Gəncəvi-850 (məqalələr toplusu). Bakı: Bakı Universiteti Nəşriyyatı, 1992, s. 296-320.

**Türk dilində:**

12. Gazali İ. Hak Yolun Esasları. Çeviren: Dilaver Selvi. İstanbul: Semerkand Yayınevi, 2013, 256 s.
13. Sühreverdi Ş. Tasavvufun Esasları (Avariful-Maarif). Çevirenler: Kamil Yılmaz, İrfan Gündüz. İstanbul: Erkam Yayınevi, 1993, 677 s.

***Резюме***

***Фидан Рзаева***

***Мотивы суфизма в художественной мысли Нематуллы Кишвари***

Творчество Н. Кишвари – наследие, сочетающее в себе сущность и тенденции развития средневековой азербайджанской поэзии, литературы в целом. Его лирика основана на сектантских мыслях и мотивах, а также любви к жизни и мирской любви. Сектантская поэзия – любовь, являющаяся основным мотивом суфизма, духовная подготовка к встрече с Богом через эмоции, занимает отдельное место в тематике и художественной системе его стихов. Стадии шариата, секты, истины и просветления, через которые проходит суфийский путешественник, также мотивированы в лирике Кишвари. Известные символические выражения суфийской литературы, термины который в лирике Кишвари призывают к истине и выбор проводника к пути истинному, место-духан, огонь, образ света, символизация страданий и радости, таинство, интерес к неизвестности и т.д. все можно сгруппировать. Суфизм в творчестве Кишвари не только отражает философские взгляды поэта, но и обретает смысл в его стремлении и мысли представить новый, совершенный образ человека.

***Ключевые слова:*** *Кишвари, лирика, любовь, секта, мистика, символ, суфизм, образ, мистерия, поэтический*

***Summary***

***Fidan Rzayeva***

***Sufi Motifs in the Artistic Thought of Nematullah Kishvari***

The creativity of N. Kishvari is a heritage that combines the essence and trends of medieval Azerbaijani poetry and literature development. His lyrics are based on sectarian thoughts and motifs, as well as

a love of life and worldly love. In sectarian poetry, love, the main motif of Sufism, the spiritual preparation for meeting with God through emotions, occupies a separate place in his poems' theme and artistic system. The stages of shariah, sect, truth, and enlightenment through which the Sufi traveler passes are also motivated in Kishwari's lyrics. The well-known symbolic expressions of Sufi literature, the terms which in Kishwari's lyrics call for truth and the choice of a guide to the path of truth, the place-Duhan, fire, the image of light, the symbolization of suffering and joy, mystery, interest in the unknown, etc. can all be grouped. Sufism in the works of Kishvari reflects the poet's philosophical views and finds meaning in his desire and thought to present a new and perfect image of man.

***Keywords:*** *Kishvari, lyrics, love, sect, mysticism, symbol, Sufism, image, mystery, poetic*

Məsul katib fil.ü.f.d.,dos. Şıxıyeva Səadət Məmməd qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.